ədalət.- 2021.-18 may.- S.6.

# ƏBƏDİ YAŞAYANLAR

## (Bu kitab jurnalist ananın böyük Qələbəmizə və Şəki şəhidlərinin ruhuna yazıçı hədiyyəsidir)

**Azərbaycana qarşı sərsəm iddialarını davam etdirən Ermənistan hakimiyyətinin nağılları artıq ölkə vətəndaşlarının xaricə üz tutmasının qarşısını ala bilmir. 44 günlük müharibədən sonra sarsılan erməni cəmiyyəti pandemiya qadağalarına baxmayaraq müxtəlif bəhanələrlə artıq dərk etməyə başladıqları oyuncaq ölkədən qaçırlar. 44 gün sürən ikinci Qarabağ müharibəsinin yekunu olaraq, qalib Azərbaycanın Ermənistanı məğlubiyyət aktına imza atmağa məcbur etməsi daha ciddi hadisələrin baş verəcərinin anonsu idi. Dünyanın müharibələr tarixində növbəti təslimçilik hadisəsi Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin şərtləri əsasında baş verdi. Bu müharibəni həm də vətən müharibəsi adlandırırıq. Azərbaycan xalqı bu mübarizədə öz rəhbəri ətrafında bir yumruq kimi birləşdi, Ali Baş Komandanın bir əsgəri kimi səfərbər oldu və bütün dünyaya milli həmrəyliyin mükəmmək nümunəsinin necə olduğunu nümayiş etdirdi. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda 44 gün davam edən müharibə xalqımızın qəhrəmanlıq dastanına çevrildi.**

Bütün müharibələrdə olduğu kimi, Vətən müharibəsində də itkilərdən qaçmaq mümkün deyildi. Baxmayaraq Azərbaycan müharibədə müasir dünyada ən qabaqcıl texnologiyalardan istifadə etməklə itkilərin sayını minimuma endirməyi bacardı, amma erməni vəhşiliyi üzündən 2800-dən çox igid döyüşçümüz şəhid oldu, minlərlə döyüşçümüz yaralandı. Bundan başqa 100 nəfərədək mülki əhali vandalizmin qurbanı oldu.

Şəhidlik zirvəsinə ucalan igidlərimiz, qəhrəman qazilərimiz, bütün döyüşçülərimiz bir yumruq kimi birləşən xalqımız Ali Baş Komandanın dönməzliyini, azad vətən sevdasını, doğma torpaq məhəbbətini ən böyük şərəf hissi ilə yaşadı. Bütün dünya xalqımıza, onun igid oğullarına, vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda şəhidlik sevdasına heyran qaldı. "Bu müharibə bizim tariximizdə əbədi yaşayacaq. Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasında, hərbçilərimiz şücaəti hesabına qazanmışıq." Bu sözlər işğaldan azad olunmuş torpaqları kənd-kənd, şəhər-şəhər gəzən, bu yerlərin gələcək xoşbəxt günlərini düşünən əfsanəvi Ali Baş Komandanımız İlham Əliyevə məxsusdur.




Qələbəmiz haqqında, vətən uğrunda aparılan ildırım sürətli haqq savaşımız və bu yolda canlarından keçən igidlərin adlarını qürurla çəkirik. Məqalələr yazılır, verilişlər hazırlanır. Belə də olmalıdır, dünyanın ən abırsız və çirkin düşmıənınə qalib gəlmişik. Qələbənin qazanılmasında hər bölgənin, hər rayonun, hər kəndin töhfəsi oldu. Şəki rayonu, Şəki sakinləri də cəbhədə inamla, cəsarətlə, qəhrəmanlıqla vuruşdular. 44 günlük bu savaşda şəhidlik zirvəsinə ucalanlar da oldu, qazilər də. Bütün bu hadisələr böyük sevgi və ehtiramla yad edilir. Şəkinin igid övladlarına həsr edilmiş bu layiqli kitabı qəhrəmanlıq dastanı da adlandırmaq olar.

Şəki şəhidlərinə həsr edilmiş "Əbədi yaşayanlar" adlı bu kitab hələ ki bir ilkdir, nümunədir. Həm də vətən məhəbbətli peşəkar bir qələmdən, peşəkar səviyyədən yaranıb. Respublikada özünəməxsus yaradıcılıq fəaliyyəti ilə oxucularının böyük hörmətini qazanmış Rəfiqə xanım Sadıqovanın ən gözəl əsərlərindən biridir bu sanballı kitab. Bölmələrin nümunəvi ardıcıllığı, şəhidlər haqqında məqalələr, fotoların hadisələrə uyğun peşəkar seçimi, sanki zərgər dəqiqliyi ilə ölçülüb-biçilən, qələmə alınan və böyük iftixar və qürur hissi ilə oxunan qəhrəmanlıq dastanı!

Poliqrafik cəhətdən də zövq və həssaslıqla çap olunan bu kitabın oxuculara təqdim olunmasında sanki mükəmməl bir yaradıcı komanda müəllifə müntəzəm dəstək verərək, onu daha da ruhlandırmışlar. Buna kitabın titul vərəqindən başlayaraq şahid oluruq. "Həmişə yaşayanlar"ın layihə rəhbəri Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovdur. İdeya müəllifi SHXÇDX-nin Şəki şəhər rayon şöbəsinin rəisi, polkovnik Yalçin Sadıqlı, redaktoru isə tarix elmləri doktoru, professor Həsənbala Sadıqovdur.

**Başda müəllif olmaqla bütün yaradıcı heyətə oxucu təşəkkürləri ilə...**

**Məzahir ƏHMƏDZADƏ,**
**Baş redaktorun regionlar üzrə müavini**